# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**“Dövlət ümumi təhsil müəssisələri tərəfindən idxalı gömrük rüsumlarından azad edilən avadanlıq, cihaz, qurğu və təhsil fəaliyyəti məqsədilə digər vasitələrin Siyahısı”nın təsdiq edilməsi haqqında**

“Gömrük tarifi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2022-ci il 27 dekabr tarixli 767-VIQD nömrəli Qanununun tətbiqi və “Gömrük tarifi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 4 iyul tarixli 936 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 26 yanvar tarixli 2000 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Dövlət ümumi təhsil müəssisələri tərəfindən idxalı gömrük rüsumlarından azad edilən avadanlıq, cihaz, qurğu və təhsil fəaliyyəti məqsədilə digər vasitələrin Siyahısı” təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərar 2023-cü il 1 yanvar tarixindən tətbiq edilir və 2025-ci il 1 yanvar tarixinədək qüvvədədir.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 22 iyun 2023-cü il

№ 203

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2023-cü il 22 iyun
tarixli 203 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

# Dövlət ümumi təhsil müəssisələri tərəfindən idxalı gömrük rüsumlarından azad edilən avadanlıq, cihaz, qurğu və təhsil fəaliyyəti məqsədilə digər vasitələrin

## SİYAHISI

| Sıra №-si | XİF MN kodu | Mal mövqelərinin adı |
|---|---|---|
| 1. | 2509 00 000 0 | Təbaşir |
| 2. | 3213 90 000 0 | Həb, tübik, bankalar, flakonlar, tabaqlar və ya analoji formalarda və ya qablaşmalarda olan, rəssamlar, tələbələr tərəfindən istifadə edilən və ya lövhələrin tərtibatı üçün boyalar, təzələmə üçün boyalar, asudə vaxtlarda istifadə üçün boyalar və analoji məhsullar: digərləri |
| 3. | 3407 00 000 0 | Uşaqlar üçün plastilin də daxil olmaqla, yapma üçün pastalar; pərakəndə satış üçün dəst, bağlamalar şəklində qablaşdırılmış və ya lövhəciklər şəklində, nalşəkilli formada, dördyanlı uzunsov tirlər və ya analoji formalarda "diş müalicəsi mumu" və ya dişlərin surətini çıxarmaq üçün tərkiblər; gips əsasında (susuzlaşdırılmış gips və ya kalsium sulfat) hazırlanmış digər diş müalicəsi məqsədləri üçün tərkiblər |
| 4. | 3506 10 000 0 | Netto çəkisi 1 kq-dan çox olmayan pərakəndə satış üçün qablaşmalarda yapışqanlar və ya adqezivlər kimi istifadəyə yararlı məhsullar |
| 5. | 3926 10 000 0 | Dəftərxana və ya məktəb ləvazimatları |
| 6. | 4016 92 000 0 | Dəftərxana pozanları |
| 7. | 7017 20 000 0 | Laborator, gigiyenik və ya əczaçılıq məqsədləri üçün 0°C-dən 300°C-yə qədər temperatur intervalında xətti genişlənmə əmsalı hər bir Kelvinə $5x10^{-6}$-dan çox olmayan digər şüşədən, dərəcələnmiş və ya dərəcələnməmiş, kalibrlənmiş və kalibrlənməmiş qablar |
| 8. | 8213 00 000 0 | Qayçılar, dərzi qayçıları və analoji qayçılar və onlar üçün tiyələr |
| 9. | 8214 10 000 0 | Kağızlar üçün, konvertlərin açılması və mətnlərin pozulub təmizlənməsi üçün bıçaqlar, karandaş- |

| | | |
|---|---|---|
| | | ların yonulması üçün karandaşçərtənlər və onlar üçün tiyələr |
| 10. | 8305 90 000 0 | Hissələr də daxil olmaqla, qiymətsiz metallardan dəftərxana sıxacları və dəmirbəndlər, indeksli kartoçka göstəriciləri və analoji dəftərxana məmulatları |
| 11. | 8424 10 000 0 | Doldurulmuş və ya doldurulmamış yanğın-söndürənlər |
| 12. | 9017 80 100 0 | Ölçü çubuqları və ruletkalar, bölgülü xətkeşlər |
| 13. | 9023 00 800 0 | Başqa istifadə üçün yararsız olan, nümayiş məqsədləri üçün istifadə olunan (məsələn, tədris və ya sərgiləmə üçün) cihazlar, aparatura və modellər: digərləri |
| 14. | 9030 33 990 0 | Gərginliyin, cərəyan qüvvəsinin, müqavimətin və ya gücün ölçülməsi və ya ona nəzarət üçün digər cihazlar və aparatura (yarımkeçirici lövhələrin və ya cihazların ölçülməsi və ya yoxlanılması üçün nəzərdə tutulmuş cihaz və aparaturalardan başqa): qeydedici qurğusuz, digərləri |
| 15. | 9208 90 000 0 | Yarmarka orqanları, mexaniki şarmankalar, mexaniki oxuyan quşlar, musiqili mişarlar və bu qrupun başqa yerində adları çəkilməyən və ya daxil olunmayan digər musiqi alətləri; ov heyvanları və quşları çağırmaq üçün hər cür düdüklər və alətlər; fitlər, şeypurlar və digər nəfəsli siqnal alətləri |
| 16. | 9405 11 002 0 | Açıq ictimai yerlərin və ya nəqliyyat magistral-larının işıqlandırılması üçün istifadə olunan işıq avadanlığından başqa asma və ya divar üçün çilçıraqlar və digər elektrik işıqlandırma avadanlığı: şüşədən |
| 17. | 9506 40 000 0 | Masaüstü tennis üçün inventar və avadanlıq |
| 18. | 9506 61 000 0 | Tennis topları |
| 19. | 9506 62 000 0 | Hava ilə doldurulan toplar |
| 20. | 9603 30 100 0 | Rəssam fırçaları və yazı fırçaları |
| 21. | 9608 10 990 0 | Maye mürəkkəbli və dəyişilən baloncuklular istisna olmaqla, diyircəkli qələmlər |
| 22. | 9608 20 000 0 | Ucluğu fetrdən və digər məsaməli materiallardan olan qələmlər və markerlər |
| 23. | 9609 10 100 0 | Bərk örtüklü qrifelli sadə və rəngli karandaşlar: qrafit qrifelli |